**“İki sahil”.-**2011.-1 oktyabr.-N 180.-S.11.

# Azərbaycanın ən böyük nailiyyəti onun müstəqilliyidir

**1995-ci il noyabrın 12-də ulu öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikası Konstitusiyası qəbul olundu. Bununla Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar olunması istiqamətində ciddi addımlar atıldı.**

Heydər Əliyev hələ Azərbaycan SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsində çalışdığı müddətdə müstəqilliyimizin bərpası istiqamətində əvəzolunmaz tarixi işlər görmüşdür.

Ulu öndər Heydər Əliyev o dövrdə Azərbaycanın ziyalı təbəqələrinin bir hissəsini represiyalarda təqiblərdən qorumağı özünə borc bilmişdir. O, çox gözəl başa düşürdü ki, qarşıda duran vəzifələrin yerinə yetirilməsində Azərbaycan xalqının qeyrətli oğul və qızlarının üzərinə böyük bir məsuliyyət düşür. 1969-cu ildə Azərbaycan SSRİ Kommunist Partiyasının iyul Plenumunda Heydər Əliyev Partiyanın I katibi seçilməsi ilə müstəqillik istiqamətində işləri daha da dərinləşdirməyə başladı. Məhz bu istiqamətdə ulu öndər mərkəzdən asılı olan, qapalı sistemin daxilində yaşayan və üstəlik də müsəlman-türk respublikasında milli dil siyasətini son dərəcə düşünülmüş və incə şəkildə həyata keçirmişdir. Heydər Əliyev ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəminə çevirildiyi həmin illərdə Azərbaycan dilini məişət və ədəbiyyat səviyyəsindən dövlət dili səviyyəsinə qaldırmaq sahəsində ardıcıl fəaliyyət göstərməklə kifayətlənmirdi, həm də şəxsi nümunəsi ilə dilimizin nüfuzunu artırır, onun elmi əsaslarla öyrənilməsinə və geniş yayılmasına stimul yaradırdı. 1970-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan dili dövlət əhəmiyyətli tədbirlərin dilinə çevrilir, ana dilinə laqeydlikləri ilə az qala qürrələnən bir sıra rəhbər işçilər cəmiyyətdə, xalq arasında özlərini artıq əvvəlki kimi rahat hiss edə bilmirdilər. Ulu öndər Heydər Əliyev yaradıcı təşkilatların, xüsusən də Yazıçılar İttifaqının qurultaylarında, irimiqyaslı yubiley tədbirlərində Azərbaycan dilində sərrast və gözəl danışmaq nümunəsi göstərməklə həm də ziyalıların, geniş ictimaiyyətin diqqətini ana dilimizin inkişafına yönəldirdi. Bunların nəticəsi olaraq Heydər Əliyev 1977-ci ildə qəbul olunan Yeni Azərbaycan Sovet Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının Dövlət dili olduğunu təsbit edən məşhur 73-cü maddəni daxil etməyə nail oldu. Bu gün qətiyyətlə demək olar ki, Heydər Əliyevin 70-ci illərdə yürütdüyü fəal dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk proseslərini sürətləndirdi və nəticə etibarilə Azərbaycan xalqını sovet imperiyasının dağılmasına hazırladı, onun bu prosesdə fəal iştirakını təmin etdi. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə, Sovetlər Birliyinə daxil olan respublikalar içərisində iqtisadiyyatın bütün sahələr üzrə-kənd təsərrüfatı, sənaye, energetika və s. böyük nailiyyətlər qazanılmağa başlanıldı. Artıq bu məsələ yuxarı dairələrdə qısqanclıqla qarşılanaraq Azərbaycanın müstəqil fəaliyyət göstərməsi imkanlarını vurğulayırdılar. Belə ki, hər il SSRİ-nin keçici qırmızı bayraqları ilə təltif olunan Azərbaycan yeni-yeni nailiyyətlərin əldə olunmasına təməl yaradırdı. Bu hal qarşısıalınmaz bir prosesə çevrilmişdir.

20 yanvar 1990-ci ildə Heydər Əliyevin siyasi hakimiyyətdə olmamasından istifadə edən SSRİ rəhbərliyi Azərbaycan xalqının həyatında ən dəhşətli hadisə törətdi. Sovet Ordusu hissələri Azərbaycanın paytaxtına və başqa şəhərlərinə daxil olaraq günahsız insanları güllələbaran etdilər. Bu zaman heç kəsin cürət edə bilməyəcəyi bir addımı yenə Heydər Əliyev atdı. O özü təqib və təzyiq altında olmasına baxmayaraq, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi və cəsarətə SSRİ siyasi rəhbərliyinin, şəxsən M. S. Qorbaçovun bu siyasətini kəskin tənqid etdi. Ulu öndər Heydər Əliyev siyasi rəhbərlikdən uzaqlaşdrılmasına baxmayaraq, əsl Azərbaycan vətəndaşı kimi özünün bu cəsarətli addımları ilə bütün dünya ictimaiyyətinin diqqətini Azərbaycana cəlb etdi. Bununla da Sovet imperiyasının qanlı cinayətindən sarsılmış və təklənmiş Azərbaycan xalqına ən çətin məqamda mənəvi dayaq oldu. Doğma xalqının ağır faciə ilə tək-tənha və başsız siyasətbazların əlində əsir-yesir qaldığı belə bir ağrılı məqamda ulu öndərin uzaqdan da olsa, xalqı ilə bir olduğunu bəyan etməsi, onun bu qanlı cinayətə qətiyyətli etiraz səsi bütün dünyada böyük əks-səda doğurdu. Beləliklə, baş vermiş hadisələrə və faciəyə ilk siyasi qiymət verdi. Elə bunun nəticəsində Azərbaycan xalqı ruhdan düşmədi, öz mübarizəsini davam etdirdi və 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini bərpa etdi.

SSRİ-nin siyasi rəhbərliyindən uzaqlaşdrıldıqdan sonra ulu öndər Heydər Əliyev çox böyük çətinliklə də olsa blokada şəraitində yaşayan doğma yurdu Naxçıvana üz tutdu. 1990-1993-cü illər ərzində Naxçıvanın ən ağır günlərində ona dayaq oldu və əlindən gələni əsirgəmədi. Ulu öndərin Naxçıvanda siyasi fəaliyyət göstərdiyi qısa zaman kəsiyində Azərbaycanın imperiya asılılığından tamamilə azad olunması, demokratik və dünyəvi dövlət kimi fəaliyyət göstərməsi üçün mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul etdi. Azərbaycanın müstəqil dövlət kimi sonrakı fəaliyyətinin bir sıra konseptual istiqamətləri məhz bu dövrdə işlənib hazırlandı. İlk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul olundu. 20 Yanvar faciəsinə siyasi qiymət verildi. Bundan başqa, Naxçıvan əhalisinin SSRİ-nin qorunub-saxlanılması barədə referendumdan iştirakdan imtina etməsi, Muxtar Respublika ərazisində Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, 20 yanvarın milli matəm günü, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik günü elan edilməsi, ilk demokratik islahatların keçirilməsi, Muxtar Respublikanın sərhədləri boyu atəşkəs rejiminin tətbiq olunması, dinclik, əmin-amanlıq

yaradılması, aqrar sahədə, elmdə təhsildə quruculuq işlərinin başlanması, milli ordu hissələrinin, ilk milli sərhəd dəstəsinin yaradılması, keçmiş Sovet ordusunun Muxtar Respublika ərazisini tərk edərkən buradakı hərbi hissələrdə silah-sursatın və texnikanın Azərbaycanın digər bölgələrindən fərqli olaraq hamısının Naxçıvanda saxlanılmasına nail olması bütövlükdə doğma Azərbaycanımız üçün ulu öndər Heydər Əliyevin həyata keçirtdiyi taleyüklü məsələlər idi.

Heydər Əliyevə məlum idi ki, müstəqilliyin əldə olunması faktoru ilə yanaşı, onun qorunub saxlanılması vacib və çox çətindir. Odur ki, güclü bir siyasi təşkilatın yaranması vacibliyi ortalığa çıxdı. Elə buna görə də Azərbaycanı yeni quruluşda, müstəqil görmək istəyən ziyalılar, ağıl, zəka sahibləri ilə birgə 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis qurultayı keçirilərək partiyanın təməli qoyuldu.

Ulu öndərin hakimiyyətə qayıdışı ölkə iqtisadiyyatında, ilk növbədə isə, ölkənin neft-qaz sənayesində iflasa son qoydu. 1994-cü il sentyabrın 20-də bütün dünyaya səs salan "Əsrin müqaviləsi" imzalandı. Məhz bu tarixi andan başlayaraq ölkənin iqtisadiyyatı tədricən hərəkətə gəldi. Uğurlu neft strategiyasını həyata keçirtmək üçün gənc kadrlara böyük ehtiyac duyulurdu. Ona görə ki, bu strategiya Azərbaycan xalqına uzunmüddətli xidmət edən bir layihə idi. ARDNŞ-in birinci vitse-prezidenti kimi İlham Əliyevin başladığı taleyüklü işlər Azərbaycan gəncliyinin İlham Əliyevin simasında layiqli kadr potensialının olmasından xəbər verirdi. Gəncliyin lideri olan İlham Əliyev Heydər Əliyev ailəsində göz açdığından onun məsləhətləri, öyüdləri və dünyaya baxışlarını ilk növbədə İlham Əliyev öyrənmiş və təbii ki, Azərbaycan gəncliyinin ən layiqli gənc kadrlarından birinə çevrilmişdir. Təsadüfi deyil ki Heydər Əliyev dəfələrlə demişdir ki, mən İlham Əliyevə özüm qədər inanıram və hesab edirəm ki, bizim başladığımız işi o layiqincə yerinə yetirməyə qadirdir. Ulu öndərin bu tarixi vəsiyyətini Azərbaycan xalqı nəzərə alaraq gəncliyin ən layiqli nümayəndəsi olan İlham Əliyevi böyük səsçoxluğu ilə Azərbaycan Respublikasının prezidenti seçmişdir.

Cənab Prezident İlham Əliyevin bu günə qədər fəaliyyəti bir daha göstərdi ki, Azərbaycan xalqı düzgün seçim etmiş və özünün ən layiqli övladı olan İlham Əliyevə arxalanmışdır.

Müstəqilliyimizin 20 illik ərəfəsində Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş nailiyyətlərə nəzər salsaq, Azərbaycanın çox düzgün yolda olduğu təsdiq olunur. Belə ki, ümumi daxili məhsul inkişaf edərək maksimum həddə çatıb. Son 7 il ərzində 900 min yeni iş yeri açılmış, yoxsulluq 5 dəfə azalmışdır. Dünyada baş verən maliyyə böhranına baxmayaraq Azərbaycanda 40% pensiyaların artmasına səbəb olmuşdur. iqtisadiyyatın artmasında özəl sektorun payı 80%-ə çatdırılmışdır. Azərbaycanın milli maraqları ilə bağlı ölkəmizdə vahid mövqe inkişaf etdirilir. Qanunun aliliyi ölkəmizdə hökm sürür.

Son 20 ildə əldə olunmuş nailiyyətlər maksimum həddə çatıb və Azərbaycan İqtisadiyyatı Cənubi Qafqaz iqtisadiyyatının 75%-ni təşkil edir. Dünya İqtisadi Forumunun rəyinə görə Azərbaycan iqtisadi inkişafa görə dünyada 55-ci, MDB ölkələri sırasında isə 1-ci yerə yüksəlib. Dünyada hökm sürən Hollandiya sindromunu Azərbaycan geridə qoymuşdur. Beynəlxalq Auditorların təsdiqinə görə Azərbaycan Neft Fondunun hesabına yoxsulluq həddi 49%-dən 9 %-ə enmişdir.

Neft bizim mühüm sərvətimizdir. Yeni neft və qaz yataqlarının aşkar edilməsi Azərbaycanın 100 il neftə və qaza olan ehtiyacını təmin edəcəkdir. Azərbaycan neftinin xarici bazara çıxarılması üçün artıq 7 neft kəməri mövcuddur. Dünyada dənizə çıxışı olmayan ölkələrə Azərbaycan köməklik göstərir, Cənubi Qafqaz koridoru ilə bağlı sazişlər imzalayır.

Bütün bunları bizə müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev öz sözləri və əməlləri ilə öyrətmişdir. Bu xətti qoruyub saxlamaq və inkişaf etdirmək harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının milli şərəf borcudur.

Azərbaycanın ən böyük nailiyyəti onun müstəqilliyidir. Bugünkü gənclik müstəqil dövlətimizin həqiqətlərini tam dərk edir və dövlətçiliyimizin atributlarının qorumasını özünün müqəddəs borcu hesab edir. Bugünkü gənclik Azərbaycanımızı güclü dövlətə çevrilməsi üçün konkret və real işləri ilə Yeni Azərbaycan Partiyasının yenilməz lideri olan Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ona layiqli arxa olacaqdır.

Ulu öndər Heydər Əliyevin müdrik kəlamında deyildiyi kimi, Azərbaycanın müstəqilliyi əbədidir və dönməzdir".

**Məhəmməd Əsədov**

**Məqalə Yeni Azərbaycan Partiyasının Azərbaycanın döviət müstəailliyinin 20-ci ildönümü ilə əlagədar gənclər arasında kecirdiyi "Müasir Azərbaycan-20" adlı yazı müsabigəsinə təgdim etmək ücündür.**